# İrəvan qazılığının tarixi ilə bağlı kitab hazırlanıb

**Qafqaz Müsəlmanları İdarəsində (QMİ) Qərbi Azərbaycan İcması ilə birgə konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbir Dövlət himninin səslendirilməsi və "Qurani-Kərim"dən ayələrin tilavəti ilə başlayıb.

Çıxış edən QMİ-nin sədri Şeyxülislam Allahşükür Paşazadə bildirib ki, Qərbi Azərbaycan İcmasının 2022-ci ildə təsis olunması dövlətimizin başçısının uzaqgörən siyasətinin təzahürüdür və soydaşlarımızın doğma yurdlarına qayıdışı dövlət siyasətinin mühüm istiqamətidir. O, Qafqaz Müsəlmanları İdarəsinin beynəlxalq platformalarda Qərbi Azərbaycanla bağlı həqiqətləri mütəmadi gündəmə gətirdiyini diqqətə çatdırıb.



Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli İrəvanın və ümumilikdə Qərbi Azərbaycanın zəngin tarixi-mədəni irsindən bəhs edərək, bu ərazilərdə mövcud olmuş məscidlərin, qəbiristanlıqların, memarlıq abidələrinin sistemli şəkildə məhv edildiyini diqqətə çatdırıb. Vurğulayıb ki, bu irsin qorunması və bərpası məsələsi təkcə milli deyil, beynəlxalq hüquq və insan haqları kontekstində də mühüm əhəmiyyət daşıyır. Tədbirin əhəmiyyətinə toxunan icma sədri belə görüşlərin ictimai həmrəyliyin möhkəmləndirilməsi, tarixi həqiqətlərin təbliği və qayıdış ideyasının daha geniş miqyasda təşviqi baxımından xüsusi rol oynadığını bildirib.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini, İrəvan qazısı Bəxtiyar Nəcəfov İrəvan qazılığının tarixi kökləri və fəaliyyəti barədə ətraflı məlumat verib. Bildirib ki, İrəvan qazılığı bölgədəki müsəlman icmasının dini-mənəvi həyatında xüsusi rol oynayıb. Arxiv sənədlərinə əsaslanan faktları diqqətə çatdıran qazı İrəvan mahalında çoxlu məscidin və dini təhsil ocağının mövcud olduğunu, deportasiyalar nəticəsində bu zəngin irsin və institusional dini idarəçiliyin fəaliyyətinin dayandırıldığını vurğulayıb.

Bəxtiyar Nəcəfov qeyd edib ki, hazırda İrəvan qazılığının tarixi ilə bağlı geniş tədqiqat işi aparılır və yaxın vaxtlarda bu mövzuya həsr olunmuş kitab ictimaiyyətə təqdim olunacaq. Əsər arxiv materialları və tarixi mənbələr əsasında sistemli şəkildə tərtib olunub və artıq çapa tam hazır vəziyyətə gətirilib. İrəvan qazılığının təşəkkülü, fəaliyyəti və tarixi irsi barədə elmi əsaslı məlumatlarla zəngin kitab tarixi həqiqətlərin qorunmasına xidmət edəcək.

Digər çıxış edənlər Qərbi Azərbaycan məsələsinin dövlətin strateji gündəliyində xüsusi yer tutduğunu, milli həmrəylik, tarixi ədalət və soydaşlarımızın doğma torpaqlarına qayıdışı baxımından strateji əhəmiyyət daşıdığını vurğulayıblar. Eyni zamanda tarixi həqiqətlərin qorunması, maarifləndirmənin gücləndirilməsi və icmanın təşkilatlanmasının vacibliyini qeyd edərək şəxsi xatirələrini, müşahidələrini və dəstək mesajlarını iştirakçılarla bölüşüblər.

Azərbaycan.- 2026.- 17 fevral (№30).- S.12.